**Azərbaycanın və bütövlükdə, Qafqazın son iki əsrdə yetirdiyi ən böyük dövlət xadimi və görkəmli siyasətçi olan Heydər Əliyevin xatirəsi ölkənin bütün kollektivlərində olduğu kimi, "Xalq qəzeti" redaksiyasında da ehtiramla yad edildi. Tədbir iştirakçıları ümummilli liderin redaksiyanın yerləşdiyi binanın birinci mərtəbəsindəki büstü önünə tər gül dəstələri düzdülər.**

# Ulu öndər "Xalq qəzeti" redaksiyasında da anıldı



Sonra baş redaktor Əflatun Amaşov Azərbaycan tarixinin Heydər Əliyev səhifələrindən, ulu öndərin ötən əsrin sonuncu onilliyində bərpa etdiyimiz dövlət müstəqilliyimizin qorunması yolunda atdığı addımlardan, ölkənin vətəndaş müharibəsindən xilas edilməsindən, müasir Azərbaycanın dünyanın əsas aktorlarından birinə çevrilməsi üçün həyata keçirdiyi siyasi-diplomatik fəaliyyətdən, qazanılmış uğurlardan söz açdı. Xüsusilə qeyd edildi ki, Azərbaycanın bugünkü uğurlarının hamısının təməlində məhz Heydər Əliyev siyasi kursu dayanır. Əlavə edildi ki, ulu öndər özünün Azərbaycan dilindəki ilk nitqini məhz bu qəzetin 50 illiyi münasibətilə 1969-cu ildə keçirilən təntənəli mərasimdə səsləndirmişdir. Eləcə də, ulu öndər "Xalq qəzeti"nin 75 illiyinə göndərdiyi təbrik məktubunda yazmışdır ki, uzun müddət "Kommunist" adı ilə nəşr edilən bu qəzet bütün sovet dövrü ərzində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur.

Xatırladaq ki, jurnalistlər başqa peşə sahiblərinə nisbətən daha şanslıdırlar ki, o böyük dövlət xadimi ilə yaxından görüşmək imkanları olub. Belə ki, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov hələ jurnalist təşkilatlarından birinin rəhbəri olduğu zaman ulu öndərə "Jurnalistlərin dostu" mükafatını şəxsən təqdim etmiş, məsul katib İlqar Rüstəmov Fransa səfəri zamanı təyyarədə ondan müsahibə almışdır. Əməkdaşlarımız Qüdrət Piriyev, İlqar Həsənov və Namiq Əhmədov ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrü zamanı muxtar respublikada onunla görüşmüş, Əli Nəcəfxanlı və Tahir Aydınoğlu televiziya jurnalistləri kimi onun tədbirlərində iştirak etmiş, Ruslan Rəfizadə "Əsilzadələrin təmsilçisi" kimi qəbulunda iştirak etmiş, mən isə əvvəl dövlət radiosunun, sonra isə "Xalq qəzeti"nin müxbiri kimi 1993-cü il iyunun 9-dan – ümummilli liderin Naxçıvandan Bakıya gəldiyi gündən etibarən yeddi il sərasər görüş və qəbullarında iştirak etmişəm. Ulu öndərin əməlləri yaşayır. Onun adı qəlbimizdə, yaratdığı ordu səngərlərimizdə, siyasi varisi isə dövlətimizin sükanı arxasındadır.



*İttifaq MİRZƏBƏYLİ,*
*Elşən AĞALAR (foto),*
*"Xalq qəzeti"*